Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 06 (1689) 30 mart 2019 - cu il Qiyməti 50 qəpik

# Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

**Novruz bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 mart 2019-cu il.**

## BU SAYIMIZDA




## BÖYÜK ELMİ ŞURADA 2

## ATU-da Novruz şənliyi



3

## Tədris Terapevtik Klinikasında "Müasir Nefrologiyanın aktual problemləri" adlı elmi-praktik konfrans keçirilib 5



## Rektor imtahan ekspertləri ilə görüşüb


3

Təbib



# Böyük Elmi Şurada

## "Ali məktəblərin əsas məqsədi keyfiyyətli təhsil vermək, beynəlxalq təhsil sisteminə inteqrasiya olunmaq və dünya universitetləri reytinqində mümkün qədər yüksək ranqa nail olmaqdır"

**Martın 28-də Böyük Elmi Şuranın növbəti yığıncağını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdı.**

Əvvəlcə universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərovun "Azərbaycan Tibb Universitetində 2018-ci il ərzində yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" barədə hesabatı dinlənildi.

Ölkə rəhbərliyinin milli səhiyyə və təhsil sistemlərinə xüsusi diqqət və qayğısı sayəsində universitetimizin 2018-cı ildə xeyli nailiyyətlər əldə etdiyini, Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup universitet əməkdaşının fəxri adlara layiq görüldüyünü vurğulayan məruzəçi kadr potensialına da toxundu: "2019-cu il yanvar ayının əvvəlinə olan məlumata əsasən, Azərbaycan Tibb Universitetində çalışan 1274 nəfərin 1144-ü professor-müəllim heyətidir. Onlardan 4-ü Rusiya Tibb Elmlər Akademiyasının akademiki, 1-i müxbir üzvü, 3-ü Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi, 7-si müxbir üzvü, 4-ü Dövlət Mükafatı Laureatı, 26-sı əməkdar elm xadimi, 46-sı əməkdar həkim, 41-i əməkdar müəllim, 2-si əməkdar bədən tərbiyəsi və idman xadimi, 2-si fəxri bədən tərbiyəsi və idman işçisi, 1-i əməkdar jurnalist, 174-ü elmlər doktoru, 846-sı fəlsəfə doktoru, 125-i professor, 344-ü dosentdir".

2018-ci ildə Azərbaycan Tibb Universitetində "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikası Qanununa əsasən təbabət və əczaçılıq sahəsində 3 istiqamət, 9 problem üzrə 61 elmi-tədqiqat işinin yerinə yetirildiyini diqqətə çatdıran prorektor 3 mövzunun tamamlandığını, 58 mövzu üzrə elmi işin isə davam etdiyini dedi.

R.Bəylərov onu da bildirdi ki, 2018-ci ildə Azərbaycan Tibb Universitetinin onkologiya, I cərrahi xəstəliklər, ümumi cərrahiyyə, I mama-ginekologiya, I daxili xəstəliklər, şüa diaqnostikası və terapiyası, ağciyər xəstəlikləri, patoloji anatomiya, histologiya, embriologiya və sitologiya, biokimya, normal fiziologiya, mikrobiologiya və immunologiya kafedralarının, Elmi-Tədqiqat Mərkəzinin əməkdaşları Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu, AMEA-nın elmi-tədqiqat proqramları və beynəlxalq layihələr üzrə işlər aparıblar.

"Ali məktəblərin əsas məqsədi keyfiyyətli təhsil vermək, beynəlxalq təhsil sisteminə inteqrasiya olunmaq və dünya universitetləri reytinqində mümkün qədər yüksək ranqa nail olmaqdır" – deyən prorektor bu nöqteyi-nəzərdən ATU-nun Beynəlxalq Universitetlər Reyestrinə daxil edilməsi, Qara Dəniz hövzəsi ölkələri universitetləri şəbəkəsi çərçivəsində özünəməxsus yer tutması, Avropa universitetləri sırasına tam hüquqlu üzv seçilməsi, beynəlxalq proqramlarda iştirak etməsini universitetimizin getdikcə artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi.

ATU-nun beynəlxalq əlaqələrinin də günün tələbləri səviyyəsində qurulduğunu söyləyən R.Bəylərov hazırda bu təhsil və elm ocağının dünyanın 85 nüfuzlu ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etdiyini, bir sıra universitetlərlə fəal tələbə və mütəxəssis mübadiləsi apardığını diqqətə çatdırdı.

Prorektor 2018-ci ildə elmi-tədqiqat işlərinin nəticələrinin 11 monoqrafiya və kitabda (onlardan dördü xaricdə), 15 dərslikdə, 30 dərs vəsaitində, 4 kitabça və sorğu ədəbiyyatında, 4 elmi əsərlər məcmuəsində, 1640 elmi işdə (566 elmi iş xaricdə, 1074 elmi iş respublikada), 25 metodik tövsiyədə, 4 Avrasiya patentində öz əksini tapdığını da vurğuladı.



2012-ci ildən etibarən Mövlanə mübadilə proqramı üzrə Türkiyənin 17 universiteti ilə müqavilə imzalandığını diqqətə çatdıran R.Bəylərov mübadilə proqramına dair aparılan sorğu nəticəsində həm qəbul edən universitet, həm də qonaq gələn alimlər tərəfindən bu təcrübənin yüksək qiymətləndirildiyini, gələcəkdə bu təcrübənin tələbə mübadiləsi istiqamətində də aparılmasının nəzərdə tutulduğunu bildirdi.

Hesabat məruzəsində Azərbaycan tibb elminin müasir dünya tibb elminə inteqrasiyasında alimlərimizin inkişaf etmiş ölkələrin aparıcı elmi mərkəzlərinə dəvət olunması və belə ölkələrdə keçirilən konfrans və simpoziumlara dəvət almalarının mühüm əhəmiyyət kəsb etməsi də xüsusi vurğulandı. Bildirildi ki, 2018-ci ildə xarici ölkələrdə keçirilən 179 müxtəlif elmi konfrans, konqres və simpoziumlarda ATU-nun 245 əməkdaşı iştirak etmişdir.

İxtisaslı mütəxəssislərin hazırlanmasında tələbə elmi işlərinin əhəmiyyətindən də danışan R.Bəylərov 1-2 noyabr 2018-ci il tarixində Azərbaycan Tibb Universitetində gənc alimlərin, rezidentlərin və tibb tələbələrinin "V Beynəlxalq Tibb Konqresi"nin keçirildiyini qeyd etdi: "Türkiyə Endoskopik Laparoskopik Cərrahlar Dərnəyinin rəhbəri və qurucusu, Fransa Leon Universitetinin professoru Cavit Avcı konqresə dəvət olunmuşdur.

Türkiyə, Rusiya, Almaniya, İran, Özbəkistan, Pakistandan olan həkimlərin, gənc alim və tələblərin də qatıldığı konqresdə 602 nəfər iştirak etmişdr ki, bunlardan 295 nəfəri həkim və rezident, 270 nəfəri tələbə, 37 nəfəri isə xarici ölkə universitetlərinin professor, tələbə və həkimləri idi".

ATU-nun Əsaslı Kitabxanasında elektron kitabxananın yaradılması işinin hal-hazırda mövcud beynəlxalq elektron nəşrlərinin oxuculara təqdim olunması formasında həyata keçirildiyini vurğulayan prorektor bildirdi ki, kitabxananın fondunda çoxlu sayda elektron materiallar mövcuddur: "Azərbaycan tibb elmi bu gun dünya səviyyəsində bir inkişaf yolundadır. Artıq 4-cü ildir ki, ATU-da elektron kitabxananın yaradılması üzrə işlər aparılır. İRBİS – 64 avtomatlaşdırılmış kitabxana proqramı çərçivəsində yaranmış elektron kitabxanaya ədəbiyyatlar yazılmış və elektron kataloqa salınmışdır. 2018-ci ildə kitabxana fondunun elektron kataloquna 2494 kitab, 2510 qazet və 5059 jurnal daxil edilmişdir".




R.Bəylərov çıxışının sonunda xalqımızın sağlamlığının keşiyində dayanmaq kimi humanist bir vəzifə sahibi olduqlarını heç vaxt unutmayan universitet əməkdaşlarının bundan sonra da yorulmadan səhiyyənin inkişafına, yeni tibb mütəxəssislərinin hazırlanmasına layiqincə xidmət göstərəcəklərinə əminliyini bildirdi.

Məruzə ətrafında çıxış edən Elmi Tədqiqat Mərkəzinin direktoru, professor Qalib Qarayev, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, Əsaslı Kitabxananın müdiri Ziyafət Eminova və tələbə-dekan Məhərrəm Alimli hesabatı qənaətbəxş qiymətləndirdilər. Elmi-tədqiqat işlərinin aparılmasında qazanılan uğurlarla yanaşı, mövcud problemlərdən də danışan natiqlər öz təkliflərini də irəli sürdülər.

Müzakirələrə yekun vuran rektor hesabat məruzəsində və çıxışlarda universitetimizdə 2018-ci ildə yerinə yetirilən elmi-tədqiqat işləri, daha çox nailiyyətlər haqqında danışıldığını vurğuladı. Problemlər üzərində xüsusilə dayanmağın vacibliyini önə çəkərək bildirdi ki, digər universitetlər kimi bizim universitetin də əsas hədəfi beynəlxalq arenaya çıxmaqdır. Bu istiqamətdə elmi işlərin aparıldığını deyən G.Gəraybəyli beynəlxalq layihələrdən yararlanmağın zəruriliyini söylədi.

Rektor son bir neçə ay ərzində universitetimizə çox cəlbedici təkliflərin gəldiyini, lakin bu təkliflərdən yararlana bilmədiklərini təəssüflə qeyd etdi: "Doktorantura xətti ilə bizə Cənubi Koreyaya 1 il 6 aylıq və İsrailə 1 il müddətində ictimai səhiyyə və epidemiologiya ixtisasları üzrə dövlət hesabına tam ödənişsiz yerlər verilib. Bütün cəhdlərimizə baxmayaraq biz bu yerlərə 1 nəfər də namizəd tapa bilməmişik. Əsas problem xarici dil bilməməklə bağlıdır. Amma istənilən halda bu qədər böyük elmi potensialı olan universitetdən əlverişli şərtlərlə ayrılan yerlərə namizədin tapılmaması ciddi narahatlıq doğurur".

Türkiyədən konkret ixtisaslar üzrə təkliflər gəldiyini, belə təkliflərin gələcəkdə də çox olacağını şura üzvlərinin diqqətinə çatdıran G.Gəraybəyli bu problemin həlli üçün tövsiyələrini verdi. Bəzi kafedralarda elmi dərəcəsi olmayan baş laborantların sayca çoxluğuna da kəskin iradını bildirən universitet rəhbəri bu məsələni nəzarətdə saxlamağı, baş laborantların elmi fəaliyyətlərinin təhlilini aparmağı tapşırdı.

Yekun nitqində problem komissiyalarının işindəki nöqsanlara, beynəlxalq konfraslarda iştirakın zəruriliyinə, bal-reytinq attestasiyasının və Əsaslı Kitabxananın fəaliyyətinə toxunan rektor universitetdə aparılan bir neçə kadr dəyişikliyi haqqında da şura üzvlərinə məlumat verdi. Elmi sahənin daim inkişafda olduğunu vurğulayan G.Gəraybəyli hesabat və çıxışlarda səslənən digər məsəllələrə də aydınlıq gətirdi.

Sonra şura üzvləri Azərbaycan Tibb Universitetinin "Qonaq Professoru (Visiting Professor)", türk əsilli Almaniya vətəndaşı Dr. Nevzat Doğanın bioqrafiyası və elmi fəaliyyəti ilə tanış oldular. Dr.Nevzat Doğan onu bu ada layiq görən universitet rəhbərliyinə və şura üzvlərinə təşəkkürünü bildirərək Azərbaycanla bağlı təəssüratlarını bölüşdü.

Daha sonra elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini təsdiqləyən, tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Zakir Qarayevi kafedranın məsləhətçi-professoru vəsifəsinə seçən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# ATU-da Novruz şənliyi

**Martın 18-də ATU-da universitet rəhbəriyi və Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə təntənəli şəkildə Novruz şənliyi təşkil olunub.**

Tədbiri açan universitetin rektoru, professor Gəray Gəraybəyli iştirakçıların diqqətinə özünün xoş sözlərini çatdırıb.

Rektor bildirib ki, ölkəmiz böyük və doğma bir bayram ərəfəsindədir: "Biz bahar bayramı olan Novruzu qarşılamağa hazırlaşırıq. Ölkəmizin tarixində bu bayramın özünəməxsus yeri var. Hər bir azərbaycanlı ailəsi Novruzu həmişə səbirsizliklə gözləyir və çox yüksək səviyyədə qeyd edir. Bu il də Azərbaycanın bütün bölgələrində, eləcə də xarici ölkələrdə Novruz bayramına ciddi hazırlıq işləri gedir. Əminəm





ki, bu əlamətdar gün yüksək səviyyədə keçiriləcək.

Bu böyük bayram münasibətilə hamınızı təbrik edirəm. Sizə, ailələrinizə, yaxınlarınıza can sağlığı, mehribançılıq, bol ruzi və bərəkət diləyirəm. Həmçinin arzu edirəm ki, istər tələbələrimizin, istərsə də müəllimlərimizin səyi nəticəsində universitetimiz daha da sürətlə inkişaf etsin. Ən qısa vaxtda bu ali təhsil ocağı dünya universitetləri sırasında özünəməxsus layiqli yer tutsun. Ölkə başçımız cənab İlham Əliyevin ətrafında birləşərək, yaxın gələcəkdə bu bayramları işğal olunmuş torpaqlarımızda, ilk növbədə Xankəndində, Şuşada, Cıdır düzündə qeyd edək"!

Novruz şənliyi öz işinə bədii hissə ilə davam edib. ATU-nun "Çinar" rəqs ansamblının rəqsləri, "Şəfa" xalq çalğı alətləri ansamblının ifaları qonaqların zövqünü oxşayıb. ATU-nun bacarıqlı tələbələri isə maraqlı çıxışlar edib, səhnəciklər nümayiş etdiriblər.

"Şəfa" xalq çalğı alətləri ansamblının fəxri üzvü Nərmin Camalova "Əgər məni unutsan", müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Günel Tamarova "Üzüm" mahnısını ifa ediblər. Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Nigar İbrahimlinin pianoda ifası da maraqla qarşılanıb. Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Hikmət Abbasov "Aşk mahnısı", IV kurs tələbəsi Dilarə İsmayılova "İlk bahar", III kurs tələbəsi Əziz Əhmədli "Al məndən gülüşlərini" və "Gecələr bulaq başı", II kurs tələbəsi Günay Zeynalova "Gəl" türk mahnısını Stomatologiya fakültəsinin II kurs tələbəsi Xəlil Məmmədov və Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Aysel İbrahimovanın gitarada müşayiəti ilə yüksək səviyyədə ifa ediblər. Onların ifaları tədbir iştrakçılarının əhval-ruhiyyəsini daha da artırıb.

Fələstinli tələbələrin etdikləri milli rəqs tədbir iştirakçıları arasında bir canlanma yaradıb. Onların özəliyi ilə seçilən rəqsləri alqışlarla qarşılanıb.

İctimai səhiyyə fakültəsinin tələbələri Gülarə Məmmədli və Taleh Qasımov şair Bəxtiyar Vahabzadənin yazdığı "Ana" şeirini səsləndirərək tədbir iştirakçılarını kövrək notlara kökləyə biliblər. Əczaçılıq fakültəsinin II kurs tələbəsi Yasəmən Cəfərlinin yaratdığı "Ana" obrazı kövrək hissləri daha da dərinləşdirib. Hərbi tibb fakültəsinin IV kurs tələbəsi Nadir Nəbiyev "Sənin eşqin edibdir" mahnısını, İctimai səhiyyə fakültəsinin II kurs tələbəsi Emilya Hacıhəsənova isə ispan mahnısı "Siepmre me quedara"nı ifa edib. Müalicə-profilaktika fakültəsinin tələbələri Laçın Mehdipur, Turan Həmidova və Hərbi tibb fakültəsinin II kurs tələbəsi Nicat Nəsibli də fərqli ifaları ilə zalda əyləşənlərin diqqətini özlərinə cəlb ediblər. N.Nəsiblinin ifa etdiyi "Novruz gəlir yurdumuza" mahnısını tədbir iştirakçıları da xorla oxuyublar:

*"Gül bülbülə gəl-gəl deyir,*
*Saf eşqimlə yüksəl deyir.*
*Dağ da, daş da gözəl deyir,*
*Novruz gəlir yurdumuza!"*

Tədbirin aparıcıları İctimai-səhiyyə fakültəsinin III kurs tələbəsi Fidan Həsənli və Stomatologiya fakültəsinin II kurs tələbəsi Əli Əliyev Tibb Universitetinin himnini səsləndirmək üçün tələbələri səhnəyə dəvət edib. Bayram tədbiri universitetin himninin səsləndirilməsi ilə başa çatıb.

**Qabil ABDULLAYEV**

# Rektor imtahan ekspertləri ilə görüşüb

**İmtahanlarla bağlı yeniliklər müzakirə olunub**

**◆ Martın 16-da Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli imtahan ekspertləri ilə görüşüb. Rektor ATU-nun imtahan prosesində aparılan islahatlar, baş verən yeniliklər və diqqət göstərilməli məqamlardan söz açıb.**



Professor G.Gəraybəyli qeyd edib ki, tədris-təhsil prosesinin keyfiyyətinin yüksəldilməsi universitet rəhbərliyinin qarşısında duran prioritet məsələlərdən biridir.



Bu baxımdan qiymətləndirmə prosesinin daha ədalətli və şəffaf aparılması önəmli məsələdir: "Artıq neçə ildir ki, məhz qiymətləndirmə prosesinin təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Bir neçə il bundan öncə ənənəvi imtahandan test imtahanına keçidi təmin etdik. Kimisi bu sistemi bəyənir, kimisi isə qəbul etmək istəmirdi. Lakin biz ümumi dünya standartlarına uyğun işimizi qurmağa çalışırıq".

Görüşdə ATU-nun təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov, tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, İmtahan Mərkəzinin müdiri, dosent Şahin Bayramov, apellyasiya komissiyasının sədri, professor Surxay Musayev çıxış edərək imtahan prosesində ekspertlərin diqqət yetirməli məqamlardan danışıblar, fikir və rəylərini bildiriblər.

Görüşdə imtahan testlərinin tərtibatı haqqında da geniş danışılıb. Prosesə xüsusi testoloqların cəlb olunacağı vurğulanıb.

# ATU "DOST xonçası" kampaniyasının növbəti iştirakçısı oldu

**Bayramlar gözəldir. Onları daha da özəl edən bayramlaşmaqdır.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin başlatdığı "DOST xonçası" kampaniyasının növbəti estafetini Azərbaycan Tibb Universiteti məmnuniyyətlə təhvil alıb. Universitetimizin nümayəndələri paytaxt sakini Rəbiyyə xanım Mirzəyevanın ziyarət edərək ona kollektiv adından ən xoş arzu və diləklərini çatdırıblar.

Rəbiyyə xanım ona göstərilən diqqətə görə təşəkkürünü bildirib. Ziyarət zamanı Rəbiyyə xanım öz həyatı haqqında məlumat verib, müxtəlif mövzularda söhbətlər edib.

Azərbaycan Tibb Universiteti "DOST xonçası" adından bu nəcib missiyanı davam etdirməsi üçün **INNOLAND Incubation & Acceleration Center-ə** ötürüb.

Qeyd edək ki, bayram xonçası Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar Komitəsinin sədri Elvin Kərimov və Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev tərəfindən aparılıb.

# İctimai səhiyyə fakültəsinin rəhbərliyi tələbələrlə birgə Novruz şənliyi keçirib

**❍ Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin dekanlığı bir qrup tələbələri ilə birgə Novruz şənliyi keçirib.**

Bayram tədbirində fakültə dekanı, professor Anar Ağayev çıxış edərək bunun fakültədə bir ilk olduğunu bildirib və bundan sonra belə tədbirlərin davamlı olacağını qeyd edib: "Artıq sizin fakültə ilə sıx əməkdaşlığınızı, aktiv iştirakınızı bütün tədbirlərdə gözləyirik. Biz də fakültə olaraq, sizlərlə belə səmimi görüşlər keçirməkdən daim məmnunluq duyuruq. Sizi və ailə üzvlərinizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm".



Tədbirdə ictimai səhiyyə fakültəsinin dekan müavini Qalina Qəniyeva, tyutor İlham Bayramov, tələbələr və bəzi qrup nümayəndələri iştirak edib. Tələbələr arasında maraqlı oyunlar oynanılıb, müxtəlif yarışlar keçirilib.

**ATU-nun mətbuat xidməti**

## Türk cərrahı ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə əməkdaşlıq edəcək

◆ Azərbaycan Tibb Universiteti xarici ölkələrin aparıcı ali məktəbləri, xüsusilə də Türkiyənin tibbi təhsil müəssisələri ilə əlaqələri daim gücləndirir. Mütəmadi olaraq ortaq konqres və simpoziumlar keçirilir və mübadilə proqramları əsasında müxtəlif tədbirlər təşkil olunur.



Bu tədbirlər çərçivəsində Türkiyənin Qazi Universitetinin Tibb fakültəsinin cərrahi kafedrasının professoru dr. Mustafa Kerem ATU-nun Tədris Cərrahiyyə Klinikasında bir il müddətində transplantologiya şöbəsində təmsil olunacaq. Professor M.Kerem əsasən qaraciyər cərrahiyyəsi üzrə klinikada keçirilən əməliyyatlarda iştirak edəcək və şöbənin iş prosesi ilə tanış olacaqdır.

Professor M.Kerem növbəti bir ildə ATU ilə əməkdaşlıq çərçivəsində elmi-tədqiqat işləri aparmaq niyyətindədir: "Qaraciyər əməliyyyatları transplantologiyası üzrə işlərimiz olacaq. Həmçinin, burada seminar da keçirmək niyyətindəyəm. Ümumiyyətlə, ATU-nun tələbələri üçün mütəmadi olaraq təlimlər təşkil etməyi planlaşdırırıq. Çünki bizim icra etdiyimiz əməliyyatlar çox ağır, müəkkəb və dəqiq prosedurdur."

Məlumat üçün bildirək ki, professor dr.Mustafa Kerem Türkiyə Qaraciyər Cərrahi Dərnəyinin II başqanıdır. O, müxtəlif illərdə "Memorial Sloan Kettring Cancer" Mərkəzi, Tornoto Universitetinin "Tornoto General Hospital Liver Transplatation an HPB Surgery" departamentində qonaq professor kimi çalışıb. 9 beynəlxalq dərnəyin üzvüdür. Bir çox konqreslərdə, elmi simpoziumlarda mühazirələrlə çıxış edib və 50-dən artıq elmi məqaləsi dərc olunub.

Onu da qeyd edək ki, martın 14-də Mustafa Kerem ATU-nun Tədris Cərrahiyyə Klinikasında cərraiyyə ixtisası üzrə təhsil alan rezidenlər üçün "Preampulyar nahiyənin tumörləri" mövzusunda çıxış edib.

## Həkimlərimiz Mingəçevirdə keçirilən konfransda iştirak ediblər

◆ **Martın 16-dan 17-dək respublikamızda regionlarda tibbin inkişafı üçün Mingəçevir şəhərində "Dölün prenatal və postnatal xromosom patologiyalarına müasir yanaşma" adlı konfrans keçirilib.**



Konfransda Azərbaycan Tibb Universitetinin və respublikamızın aparıcı mütəxəssislərin məruzələri dinlənilib. İştirakçılar arasında ana və uşaq sağlamlığı haqqında geniş müzakirələr aparılıb.

Tədbirdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının pediatrik-invaziv kardioloqu Elşən Rzayev, mama-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov, Aygün Fərəcova, Aygün Rüstəmxanlı təmsil olunublar.

# Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin I Beynəlxalq Elmi Konqresi

◆ **Martın 14-də Bakı Konqres Mərkəzində Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin I Beynəlxalq Elmi Konqresi keçirilib. "Daha yaxşı gələcək quraq" şüarı altında reallaşan konqres çərçivəsində əvvəlcə plenar iclas keçirilib, müxtəlif mövzularda məruzələr dinlənilib və fikir mübadiləsi aparılıb.**





Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransı keçirilib.

ATU-nun ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin sədri, professor Çingiz Rəhimov konqresin keçirilməsində əsas məqsədin əhaliyə əlçatan və keyfiyyətli tibbi xidmət göstərmək olduğunu vurğulayaraq, ağız və üz-çənə cərrahiyyəsi ixtisasına dair bilik və təcrübələrin yerli və xarici həmkarlarla bölüşməsi, habelə beynəlxalq əməkdaşlığın qurulması və bu sahədə yeni nailiyyətlərin təşviq edilməsi olduğunu deyib.

Mətbuat konfransında çıxış edən beynəlxalq mütəxəssislər də təcrübə mübadiləsinin üz-çənə cərrahiyyəsinin bütün istiqamətlərinin inkişafına töhfə verəcəyini qeyd edib və konqresin yüksək səviyyədə təşkilatçılığına görə öz minnətdarlıqlarını bildiriblər.

Sonra konqresin açılış mərasimi keçirilib. Tədbir iştirakçıları əvvəlcə bu cəmiyyətin fəaliyyətindən bəhs edən videoçarxa baxıblar. Cəmiyyətin sədri professor Çingiz Rəhimov konqresdə yerli tibb qurumlarının nümayəndələri ilə yanaşı, ABŞ, Rusiya, Tailand, Niderland, Almaniya, Birləşmiş Krallıq, İran, Türkiyə, İtaliya, Hindistan, Almaniya və Gürcüstandan tibb elmi məktəblərinin tanınmış mütəxəssisləri və alimlərinin iştirak etdiyini diqqətə çatdırıb. Sədr konqresə 400-dən çox mütəxəssisin qatıldığını və 130-dan çox elmi məqalənin təqdim edildiyini bildirib.

Bədii hissə ilə davam edən konqresə martın 16-da yekun vurulub.

## Tədris Cərrahiyyə Klinikası YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurası ilə birgə xeyriyyə aksiyası keçirib

### ◆ Sağlamlıq imkanları məhdud olan uşaqların tibbi müayinəsi aparılıb

◆ **Martın 19-da ATU-nun Tədris Cərrahiyyə Klinikası Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatı Qadınlar Şurası ilə birgə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xeyriyyə aksiyası keçirib. Novruz bayramı ərəfəsində baş tutan aksiyasının məqsədi uşaqların sağlamlıqlarının qorunması olub.**



Aksiya çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli respublika xüsusi internat məktəbinin şagirdləri müayinə olunub. Aksiyada 12 nəfər uşaq iştirak edib. Onlardan ikisi sünnət olunub, digərləri isə müxtəlif müayinələrdən keçirilib. Uşaqlardan qan analizi alınıb, ehtiyac yarandığı təqdirdə USM müayinəsindən keçirilib, fəqərələri, qasıqları, daxili orqanları ətraflı yoxlanılıb. Müayinə nəticəsində uşaqlarda aşkar olunmuş xəstəliklərin müalicəsinin aparılacağı da nəzərdə tutulub.

Aksiyada ATU-nun Tədris Cərrahiyyə Klinikasının xeyriyyə kampaniyasında klinikanın baş həkimi, uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısının müavini, YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədr müavini İradə Mahmudova, uşaq cərrahiyyəsi şöbəsinin müdiri Murad Əlibəyov, həkimlər Günay Hüseynzadə, Xatirə Rəhimova, Ramin Bayramov, Vüqar Məhəmmədov, UZİ həkimi Vəfa Nəcəfova, nevropatoloq Yeganə Rəşidova iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Tədris Terapevtik Klinikasında “Müasir Nefrologiyanın aktual problemləri” adlı elmi-praktik konfrans keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Ümumdünya Böyrək Gününə həsr olunmuş “Müasir Nefrologiyanın aktual problemləri” mövzusunda elmi-praktik konfrans keçirilib.**



Tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, “Nefrologiyanın İnkişafına Yardım” İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub.

Konfransı giriş nitqi ilə açan ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov bu tarixin bütün dünyada, o cümlədən Azərbaycan Tibb Universitetində də hər il qeyd edildiyini bildirib. Onun sözlərinə görə, 2006-cı ildən etibarən əksər ölkələrdə bu gün münasibətilə tədbirlər, konfranslar keçirilir və tibbin bu sahəsinə dair çox önəmli mövzularda məruzələr edilir. “Məsələn, 2006-cı ildə Azərbaycanda keçirilən ilk belə tədbirin mövzusu “Böyrəklərimiz qaydasındadırmı?” idi. Növbəti illərdə də bir sıra böyrək xəstəliklərinə həsr olunmuş konfranslar təşkil edilib. Belə bir tədbirin keçirilməsi ümumiyyətlə, çox önəmli və təqdirəlayiqdir. Bütün tanınmış nefroloqlar bir yerə yığılır, fikir və bilik mübadiləsi aparılır, elmi işlər müzakirə olunur”.

Sözünə davam edən R.Bəylərov nefroloji xəstələrə dövlət qayğısından da danışıb. O qeyd edib ki, Tədris Terapevtik Klinikasında 2011-ci ildən etibarən bu tarixi gün qeyd edilir: “İndi ölkəmizdə terinal xronik böyrək çatışmazlığı, hemodializ və böyrək transplantasiyası üçün lazim olan xərcləri dövlət proqramı əsasında Səhiyyə Nazirliyi öz üzərinə götürüb. Digər ölkələrdə isə belə deyil. Bu da dövlətimizin böyrək xəstəliyindən əziyyət çəkən insanlara olan diqqət və qayğısından xəbər verir”.

Qeyd edək ki, tədbirdə Səhiyyə Nazirliyinin baş nefroloqu, ATU-nun Terapevtik və Pediatrik Propedevtika kafedrasının professoru, TTK-nın Nefrologiya və Efferent Terapiya Mərkəzinin rəhbəri, professor M.Ağayev və M.Cavadzadə adına RKUX-un hemodializ şöbəsinin müdiri, t.ü.f.d. F.Babayev “Azərbaycanda böyrək əvəzedici terapiyanın 2018-ci il reqistri”, t.ü.f.d. M.Hacıyeva “Uşaqlarda xronik qlomerulonefritin morfoloji xüsusiyyətləri”, Ə.Əliyev adına ADHTİ-nun nefrologiya kafedrasının müdiri, professor Fuad Sərdarlı, dosent L.Bəxtiyarova, assistentlər M.Həsənov, Q.Gəncəliyeva “Hamilə qadınlarda yumaqcıq filtrasiya sürətinin təyininin prioritet metodu”, Ə.Əliyev adına ADHTİ-nin hemodializ laboratoriyasının müdiri, professor, İ.Həmidov, t.ü.f.d. H.Ağayev “Uzun müddət məcburi yataq rejimində olan xəstələrdə sidik turşusu, lipid, kalsium mübadilələrinin və parathormon səviyyəsinin tədqiqi”, E.Həziyev “Onkoloji xəstəliklərin kimyəvi preparatlarla müalicəsi zamanı böyrəklərin zədələnməsi”, R.Heydərov adına DİN hospitalının hemodializ şöbəsinin müdiri, t.ü.f.d. B.Əhədov “XX zamanı hiperurikemiya ürək-damar ağırlaşmalarının risk faktoru kimi”, assisitent S.İsmayılova “BXX zamanı C virusu hepatitinin 2018-ci il KDİGO tövsiyələrinə əsasən müalicə prinsipləri”, E.Fərəcov “Amiloid Nefropatiyası”, S.Əsgərli L.Həsənova “Hemoreologiyanın yaxşılaşdırılmasında böyrəklərin xronik xəstəliyinin konservativ müalicəsində rolu”, T.Nağdəliyev “Hemodializ xəstələrində arterial hipertenziyanın müalicəsi”, assistent A.İbişova “Punksion böyrək biopsiyasında yetərlilik kriteriyalarının morfoloji meyarları”, X.Quluzadə “Autosom Dominant Böyrək Polikistozunun müalicəsinə yeni yanaşma”, dosent L.Bəxtiyarova, professor F.Sərdarlı, M.Həsənova, E.Sərdarova “Hepato-renal sindrom (kliniki müşahidə)”, Ə.Ənnağıyev, M.Cəlalov “Hemodializ müalicəsi alan xəstələrdə həyat keyfiyyətinin qiymətləndirilməsində pittsburq yuxu keyfiyyət indeksinin təyini” mövzularında çıxışlar ediblər.



# Tədris Cərrahiyyə Klinikasında daha bir uğurlu əməliyyat aparılıb

**◆ Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında 84 yaşlı kişinin gözündə cərrahiyyə əməliyyatı aparılıb.**



Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılovun sözlərinə görə, xəstə klinikaya sol gözündəki problemlərlə bağlı müraciət edib: “Xəstə sol gözündə qapaq altında şişkin törəmənin əmələ gəlməsi və alt göz qapağının içəriyə doğru çevrilməsindən şikayət edirdi. MRT müayinəsi, USM və biomikroskopiya müayinələrindən sonra xəstəyə cərrahi əməliyyat qərara alındı. Əməliyyat zamanı xəstəyə radikal rezeksiya edərək, qığırdağı törəmə ilə birlikdə kəsib götürdük. Qapaq plastika olunub, deffektsiz, gözəl nəticə əldə etmişik. Əməliyyat radikal, mikroskopik icra edildiyinə görə, həmin nahiyədə yenidən nəsə əmələ gəlməsi mümkün deyil”.

Q. İsmayılovun bildirdiyinə görə, əməliyyat 1 saat 40 dəqiqə davam edib. Xəstə həmin gün evə buraxılıb və hazırda özünü yaxşı hiss edir.

# Tədris Cərrahiyyə Klinikasında dörd mərhələli müalicə aparılıb

**Dünyada, eləcə də Azərbaycanda ayaq xəstəlikləri arasında əyripəncəliliyə rast gəlinir. Bəzən düzdabanlılıq adlandırılan bu xəstəlik insanda uşaq yaşlarından yaranmağa başlayır və müalicə olunmadığı təqdirdə ayaq deformasiyalarına qədər gəlib çıxa bilir. Ona görə də bu müalicə mümkün qədər tez aparılmalıdır.**



ATU-nun Tədris Cərrahiyyə Klinikasında əyripəncəlikdən əziyyət çəkən 4 aylıq körpə bir neçə mərhələdə müalicə olunmaqdadır. Klinikanın travmatologiya və ortopediya şöbəsinin cərrahı Nicat Səttarovun sözlərinə görə, anadangəlmə ayaq əyriliyi olan bu körpə son mərhələdə əməliyyat edilib: “Müalicənin əvvəlində biz əyriliyi 4 mərhələli gipslə düzəltdik. Buna kensept metodu deyirik. Hazırda axırıncı - dördüncü mərhələdəyik və uşaqda tenotomiya əməliyyatını apardıq. Əməliyyatdan sonra 4 həftə ərzində ayaq gipsdə saxlandıqdan sonra açılır. Daha sonra uşaq xüsusi ayaqqabı geyinməlidir. Bir müddətdən sonra artıq ayaq tam normal formalaşır”.

# Ağırlaşmış varikozun uğurlu əməliyyatı

**Qadınlarda varikoz xəstəliyi - ayaqların şişməsi, damarların üzə çıxması tez-tez rast gəlinən hallardır. Bu xəstəlik xüsusilə gecələr qadınlarda ciddi problem yaradır. Halbuki, əməliyyat yolu ilə rahat həyata geri dönmək olar. Bunun üçün sadəcə düzgün diaqnoz qoymaq lazımdır.**

Belə xəstələrdən biri – uzun müddət nəticəsiz müalicə alan pasiyent bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında uğurla əməliyyat olunub. Tanınmış fleboloq, klinikanın damar cərrahı, professor Məhəmməd Kərimov deyir ki, xanım ayaq şişməsi, gecələr qıcolma, ayaqda ağrılar səbəbindən onlara müraciət edib: “Bu xəstədə aşağı ətrafın varikoz xəstəliyinin ağırlaşmış forması - yəni, trafiki dəyişikliklərlə səciyyələnən bir formasıdır. Pasiyent uzun illərdir bu xəstəlikdən əziyyət çəkir. İstər Bakıda, istərsə də yaşadığı bölgədə dəfələrlə varikozla bağlı, konservativ müalicə olunub. Təəssüf ki, müalicə istənilən nəticəni verməyib. Buna səbəb isə xəstənin tam dəqiqliklə müayinə olunmadan müalicə edilməsidir”.

M.Kərimovun sözlərinə görə, müasir dövrdə müalicə taktikasının seçimində əsas rolu düzgün müayinənin aparılması oynayır: “Damar müalicəsində isə düzgün müayinə - dopler müayinəsinə əsaslanmış ultrasəs (USM) müayinəsidir. Bizim şöbədə məhz damar dopleri sahəsində formalaşmış həkimlərimiz var. Dopler müayinəsi sayəsində biz xəstəyə dəqiq diaqnoz qoya bilirik”.



Beləliklə, xəstə ATU-nun Tədris Cərrahiyyə Klinikasında ətraflı müayinə olunduqdan sonra xəstəliyin səbəbi aşkarlanıb. Artıq 49 yaşlı qadın uğurla əməliyyat olunub və problemdən xilas olub.

**ATU-nun mətbuat xidməti**

# Onkologiya Klinikasında elmi seminar

◆ Azərbaycan Tibb Universitetinin Onkologiya Klinikasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biologiya və Tibb bölməsi ilə birlikdə Elm Gününə həsr olunmuş elmi seminar keçirilib. Konfransda Azərbaycanla yanaşı, Rusiya və Belarusdan mütəxəssislər iştirak ediblər.



Seminardan öncə xarici qonaqlar ATU-nun Onkologiya Klinikasının direktoru, Milli Məclisin səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovla görüşüblər. Görüş zamanı akademik Ə.Əmiraslanov ATU-nun Onkoloji Klinikasının fəaliyyəti, görülən işlər barədə qonaqlara məlumat verib. Klinikada kimya terapiyası, qida borusu və sümük onkologiyası sahəsində aparıcı müəxəssislərin çalışdığını, müxtəlif mürəkkəb əməliyyatların icra olunduğunu bildirib.

AMEA-nın Fiziologiya İnstitutunun direktoru Ulduz Həşimova qeyd edib ki, Azərbaycan prezidentinin sərəncamına əsasən, ölkəmizdə hər il martın 27-si Elm Günü kimi qeyd olunur. Azərbaycanın elmi ictimaiyyəti üçün əlamətdar hadisə olan bu tarix münasibətilə AMEA-nın institutlarında, təhsil ocaqlarında müxtəlif formatlı tədbirlər keçirilir. Onkoloji Klinikada təşkil olunan elmi seminar müasir biotibbin aktual məsələlərinə həsr olunub.

Rusiyanın D.O.Ott adına Mamalıq, Ginekologiya və Reproduktologiya Elmi Tədqiqat İnstitutunun Patomorfologiya şöbəsinin rəhbəri, professor İqor Kvetnoy dəvət üçün təşəkkür edərək təmsil etdiyi qurum, burada aparılan elmi tədqiqatlar barəsində məlumat verib. Görüşün sonunda qonaqlara xatirə hədiyyələri təqdim olunub.



Qeyd edək ki, İqor Moyiseyeviç Kvetnoy Molekulyar tibb və neyroimmunoendokrinologiya sahəsində tanınmış mütəxəssis, tibb elmləri doktoru, melatoninin ekstrapineal sintezi kəşfinin müəllifidir. Rusiya Federasiyasının əməkdar elm xadimidir. Elm və texnika sahəsində RF hökuməti mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasının V.X.Vasilenko adına mükafatın laureatı, Böyük Britaniya Kral Cəmiyyətinin Pirs mükafatı laureatıdır.

“Qocalmanın neyroimmunoendokrin mexanizmləri. Bukkal epiteli və yaşla bağlı xəstəliklərin fərdiləşdirilmiş diaqnostikası və target terapiyasının optimallaşdırılması” mövzusunda elmi seminarda yaşla bağlı xəstəliklər, bu xəstəliklərin yeni müalicə üsulları barədə müzakirələr aparılıb. Tədbirdə Belarusun Fiziologiya İnstitutunda onkoloji problemlərlə məşğul olan mütəxəssislərin mühazirələri də dinlənilib.

# Mütəxəssisimiz hipertoniya xəstəliyi ilə bağlı elmi araşdırmalarını davam etdirir

**Tibbi biologiya və genetika kafedrasının müəllimi Zümrüd Abaszadə insan genetikası sahəsində apardığı elmi işinin nəticəsi olaraq, 2 gen – AGT və AGTR1- genlərinin analizinin aparılmasının tədqiqat işi üçün məqsədəuyğun olduğunu hesab edir.**



Z.Abaszadənin sözlərinə görə, orqanizmimizdə qan təzyiqini və maye balansını tənzimləyən ən mürəkkəb və mühüm hormon sistemlərindən biri renin-anqiotenzinogen-aldosteron sistemidir. AGT geni ilə kodlaşdırılan anqiotenzinogen qaraciyərdə sintez olunan anqiotezin I hormonunun ilkin variantıdır (precursor protein). Böyrəklərdə sintez olunan, saxlanılan və qaraciyərə ifraz olunan renin fermenti anqiotenzinogen zülalını anqiotenzin I zülalına çevirir. Anqiotenzin I zülalı isə ACE (angiotensin-converting enzyme) fermenti vasitəsi ilə qanda anqiotenzin II hormonuna çevrilir. Anqiotenzin II zülalı aldosteron hormonunun ifrazını stimullaşdırır, aldosteron isə böyrək kanallarını natrium və suyun qana reabsorbsiyasını, eləcə də, elektrolit balansını saxlamaq üçün kaliumun ekskresiyasına səbəb olur. AGTR1 (Angiotensin II Receptor Type 1) geni isə anqiotenzin II hormonunun reseptorunu kodlaşdırır. Onun apardığı tədqiqat işi zamanı 2 xəstənin AGT geninin, 3 xəstənin isə AGTR1 genini kodlaşdıran ekzonları oxunmuşdur.

Müvafiq bioinformatik analiz üsullarından (BLASTX, SAMtools, CLC Genomics Workbench) istifadə etməklə, oxunmuş DNT ardıcıllıqlarının insanın müvafiq referens genləri ilə ilkin müqayisəsi göstərir ki, həmin xəstələrin AGT genlərində, ən azı 3, AGTR1 genlərində isə ən azı 2 mutasiya mövcuddur.

Hazırda Z.Abaszadə tərəfindən təcrübi nəticələrin daha dərin və müqayisəli bioinformatik analizi davam etdirilir.

**ATU-nun mətbuat xidməti**

# Mart soyqırımı Azərbaycan xalqının qan yaddaşıdır

**Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 26 mart fərmanından sonra 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi hər il ölkəmizdə dövlət səviyyəsində qeyd edilir.**



**Erməni şovinistləri tərəfindən uzun illər boyu planlı surətdə həyata keçirilmiş soyqırım siyasətinin mahiyyəti azərbaycanlıları öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə bu ərazilərdə mifik “Böyük Ermənistan” dövləti yaratmaq idi.**

1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqaviləsinin imzalanması Azərbaycan torpaqlarının bölünməsi və xalqımızın parçalanmasının əsasını qoydu. Bununla da milli faciəmiz - torpaqlarımızın hiyləgərliklə zəbt edilməsi, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi başlandı. 1828-1896-cı illərdə İrandan və Türkiyədən Azərbaycana 1 milyon 200 min erməni köçürüldü. Bunun 985 min nəfərdən çoxu Azərbaycanın qərb bölgəsində, qalanları isə Qarabağ, Gəncə quberniyasında yerləşdirildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşan ermənilər himayədarlarının sayəsində tezliklə erməni vilayəti adlandırılan inzibati bölgənin yaradılmasına nail oldular. Belə bir süni ərazi bölgüsü ilə azərbaycanlıların doğma torpaqlarından qovulması və qətlə yetirilməsi siyasətinin bünövrəsi qoyuldu. 1829-cu ilin məlumatına görə təkcə İrəvan şəhərində əhalinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Rusiya imperiyasında keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə Qərbi Azərbaycanda - İrəvan quberniyasında 313178 azərbaycanlı yaşayırdı. Lakin sonralar bu rəqəmlər tamamilə dəyişdirildi. Gəlmə bir etnosun bizim ərazimizdə dövlət yaratmasına bəraət qazandırmaq məqsədilə Azərbaycan və ümumən Qafqazın tarixinin saxtalaşdırılmasına rəvac verildi. Erməni qəsbkarları “Böyük Ermənistan” yaratmaq eşqi ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi soyqırım aktları həyata keçirməyə başladılar. 1905-1907-ci illər inqilabı dövründə çarizmin öz hökmranlığını qoruyub saxlamaq məqsədilə həyata keçirdiyi tədbirlərdən biri də imperiya tərkibinə daxil olan müxtəlif millətlər arasında süni ziddiyyətlər salmaq, onları bir-birinə qarşı qaldırmaq idi. Bu ziddiyyətlərin tarixi hələ keçən əsrin əvvəllərindən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi ilə başlanmışdır.

1905-1907-ciillərdə ermənilərin azərbaycanlılara qarşı ilk və irimiqyaslı silahlı çıxışları baş verir və qanlı qırğınlarla nəticələnir.

İlk toqquşma Bakıda baş vermişdir. 1905-ci ilin fevralında Bakıda polis və ordunun etinasız münasibəti nəticəsində üç gün erməni-müsəlman qırğını və qarəti baş verdi. Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında qırğın İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl və Qaryagini əhatə etdi. Bu qarşıdurmalarda Qazax şəhəri yandırıldı. 15-18 noyabrda Gəncədə, 20-24 noyabrda isə Tiflisdə qanlı toqquşma baş verdi. Bakı, İrəvan və Yelizavetpol quberniyalarında 158-dən çox Azərbaycan kəndi dağıdıldı.

Mart hadisələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhəri və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğındır.

Bu soyqırım zamanı 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə soydaşımız itkin düşmüşdür.

1918-ci ilin mart hadisələri zamanı Bakıda 6 min sovet, 4 min daşnak Andronikin silahlı qüvvələri toplanmışdı. Başda Şaumyan olmaqla Bakı Soveti rəhbərliyinin göstərişi ilə şəhərin müsəlman məhəllələri şiddətli atəşə tutulur. Dinc əhali amansızcasına qırılır, əsir götürülür, şəhər və kəndlər qarət edilir, dağıdılır və yandırılır. Qırğında Mikoyanın başçılıq etdiyi “Qırmızı Qvardiya” dəstələri fəal iştirak edirdi. Quldur dəstələri Bakının ən gözəl memarlıq abidələrindən olan “İsmailiyyə”ni, jurnalların redaksiyalarını dağıtmış, Təzə Pir məscidini artilleriya atəşinə tutmuşlar.

1918-ci il martın 30-da axşam başlanan azərbaycanlı qırğınları bir həftə davam etmiş, lakin onun üç günü erməni daşnak dəstələrinin hədsiz azğınlığı, amansızlığı və qəddarlığının kütləvi xarakteri ilə səciyyələnmişdir. Qırğında bir sıra Bakı kəndlərinin - Məhəmmədi, Əhmədli, Balaxanı, Sabunçu, Binəqədi, Hökməli, Zabrat, Bibi-Heybət, Ramana və s. sakinləri erməni vəhşiliklərinin qurbanı olmuşlar.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümumilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. O dövrün bəzi statistik məlumatlarına nəzər yetirək: 1918-ci ilin mart ayında Şamaxıda 8 minə yaxın dinc əhali qətlə yetirilmişdir. Şamaxı məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi yandırılmış, əhalisi məhv edilmişdir.

1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 minə yazın azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir. Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşdülər. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir.

1918-ci il mart hadisələri Azərbaycan xalqına qarşı soyqırım idi. Bu soyqırım ümumən Bakı, Şamaxı, Quba, Göyçay, Lənkəran, Naxçıvan, Gəncə, Qarabağ, Zəngəzur bölgələrində də törədilmiş və 12 mindən çox dinc Azərbaycan əhalisi öldürülmüşdür. Azərbaycan xalqı bu tarixi cinayəti daim qan yaddaşı olaraq dərin hüznlə,matəmlə yad edir və bu qanlı milli qirğını heç vaxt unutmayacaqdır.

**Elbrus Sadıqov,**
*İctimai fənlər kafedrasının dosenti*

# Sevimli həmkarımızı ürəkdən təbrik edirik

**Azərbaycan Tibb Universitetində uzun müddət fəaliyyət göstərən dosent Musayev Faiq Əbdürəhman oğlunun bu günlərdə 80 yaşı tamam olur. Ömrünün 40 ilini Terapevtik stomatologiya kafedrasında gənc və savadlı həkim-stomatoloqların yetişməsinə həsr edən Faiq müəllim 1963-cü ildə ATU-nun Stomatologiya fakültəsini bitirib və Gəncə şəhərinə təyinat alıb. Orada həkim-stomatoloq kimi fəaliyyətə başlayıb və sonra şəhər stomatoloji poliklinikasında şöbə müdiri vəzifəsində işləyib.**



İşlədiyi müddətdə Azərbaycanda ilk olaraq Gəncə şəhərində parodontoloji kabinet yaradıb və orada xəstələrin müalicəsi ilə yanaşı elmi- tədqiqat işləri ilə də məşğul olub. Dissertasiya işi ilə əlaqədar dəfələrlə Moskva və Leninqrad şəhərlərində təkmilləşmə kursları keçib və 1971-ci ildə namizədlik dissertasiyasını müdafiə edib.

F.Musayev 1979-cu ildə müsabiqə yolu ilə ATU-nun Terapevtik stomatologiya kafedrasına assistent vəzifəsinə dəvət olunub və hal-hazırda da bu kafedranın dosentidir.

Kafedrada işlədiyi müddətdə Faiq müəllim tədris prosesi ilə bərabər, universitetin və fakültənin müxtəlif ictimai vəzifələrini aparıb. 1983-1986-cı illərdə fakültə partiya təşkilatının katibi, kafedra müdiri əvəzi, 1986-cı ildən başlayaraq 20 il tədris hissə müdiri vəzifəsində çalışıb.

1997-2012-ci illərdə Faiq müəllim ATU-nun nəzdində fəaliyyət göstərən ixtisaslaşmış dissertasiya şurasının üzvü və elmi katibi olub. Bu müddət ərzində şurada 80-dən artıq stomatologiya, otorinolaringologiya, psixiatriya və nevrologiyaya dair namizədlik və doktorluq dissertasiyaları müdafiə edib. 1986-cı ildən Stomatologiya fakültəsinin Buraxılış Dövlət İmtahan Komissiyasının da üzvü olub.

Faiq Musayev dəfələrlə ölkəmizdə və xarici ölkələrdə keçirilən konfranslarda və konqreslərdə iştirak edib və elmi məruzələrlə çıxış edib. Onun 60-dan çox məqaləsi, metodik göstəriciləri və tezisləri var. 2014-cü ildə Stomatologiya fakültəsinin tələbələri üçün Azərbaycan dilində ilk dəfə tərtib edilən "Ağızın selikli qişa xəstəlikləri" dərs vəsaitinin müəllifidir.

Fəaliyyət göstərdiyi 40 il ərzində dosent F.Musayev oxuduğu maraqlı mühazirələrdə və apardığı praktiki, kliniki dərslərdə öz elmi, tibbi biliyini tələbələri ilə bölüşüb, onların savadlı və bacarıqlı mütəxəssis kimi formalaşmasına çalışıb.

Ömrünün 80-ci baharını yaşayan Faiq müəllim bu gün də kafedrada yüksək səviyyədə mühazirə və məşğələ dərsləri aparır. Kollektivdə çalışan müəllimlərin çoxu vaxtilə onun dərs dediyi tələbələrdir.

Kafedranın əməkdaşları sevimli və hörmətli həmkarları Faiq müəllimi ürəkdən təbrik edir, ona uzun ömür və can sağlığı arzulayırlar!

*Terapevtik stomatologiya kafedrasının kollektivi*

# Yeni dərs vəsaiti çap olunub

**Azərbaycan Tibb Universitetinin normal fiziologiya kafedrasının müəllimləri tərəfindən Azərbaycan dilində hazırlanmış bu dərslik əsasən Normal fiziologiya fənninin Əczaçılıq fakültəsi tələbələrinin proqramına tam uyğun olaraq praktiki sağlam insanın fizioloji funksiyalarının öyrənilməsinə yönəldilib, müstəsna xarakter daşıyır, asanlıqla qavranılır.**




Dərslikdə orqanizmin homeostatik səviyyədən davranış səviyyəsinədək olan sosial yönümlü və bütün funksional sistemlərinin (P.K.Anoxin) yaranmasında iştirak edən orqan və toxumaların fizioloqiyası haqqında ətraflı biliklər verilir. Bu da orqanizmdə ilkin dəyişikliklərin düzgün qiymətləndirilməsinə və vaxtında profilaktik tədbirlərin görülməsinə geniş imkan yaradır.

Dərslikdən Azərbaycan Tibb Universitetinin əsasən əczaçılıq fakültəsinin tələbələri, həmçinin müalicə işi, hərbi-tibb, tibbi-profilaktika, stomatologiya, digər ali tibb məktəblərinin tələbələri, eləcə də baza ali tibb təhsili əsasında rezidenturaya hazırlaşan məzunlar, fiziologiya sahəsində çalışan elmi işçilər, həkimlər və tibbi biologiya ixtisası üzrə mütəxəssislər də istifadə edə bilərlər.

Dərslik Azərbaycan Respublikası Səhiyyə və Təhsil Nazirlikləri tərəfindən təsdiq edilmiş və ali tibb məktəbləri tələbələri üçün tövsiyə olunmuşdur.

# 14 yaşlı qızın üzərində unikal cərrahi əməliyyat aparılıb

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının mütəxəssisləri maraqlı və mürəkkəb bir əməliyyata imza atıblar. 14 yaşlı qız tam formalı "testikulyar feminizasiya" diaqnozu ilə klinikaya müraciət edib. Yəni, xaricdən qadın olan bu pasiyentin daxili orqanları kişi cinsinə aid olub.**



Klinikanın baş həkimi Ramiz Poluxov bildirir ki, uşaq 2 yaşında ikən ikitərəfli yırtıq əməliyyatı keçirib. Uşaqda ilk narahatlıq 3 yaşında süd vəzilərinin böyüməsi ilə başlayıb: "Ultrasəs müayinəsi zamanı bəlli olub ki, körpənin bətnində yumurtalıq və uşaqlıq yoxdur. Müayinə nəticəsində ona "testikulyar feminizasiya" diaqnozu qoyulub. 2018-ci ildə isə xəstənin çanaq boşluğunun maqnit rezonans tomoqrafiyası zamanı intraabdominal (qarın boşluğunda) maliqn transformasiyalı xayaların olduğu müəyyən edilib".

Xəstə müalicə üçün ATU-nun Tədris Cərrahiyyə Klinikasına göndərilib. Cərrah R.Poluxovun sözlərinə görə, müayinə zamanı xəstənin fenotip olduğu təsdiqlənib. Yəni, xarici görünüşünə görə tam qız olan bu pasiyentdə inkişaf etmiş süd vəziləri və xarici cinsiyyət üzvləri olub. Lakin daxildə uşaqlıq və yumurtalığı yoxdur, yalnız 3-4 sm-lik infantil uşaqlıq yolu olduğu müəyyənləşib. Lakin genotip olaraq xəstə 46XY geninə aid tam oğlandır.

Bu xəstədə laparoskopik üsulla orxioektomiya əməliyyatı aparılıb. Onun qarın boşluğunda yerləşən hər iki xaya çıxarılıb. Xaric olunmuş xayalar histoloji müayinəyə göndərilib və in situ qonadoblastoma aşkar edilib.

Həkim qeyd edir ki, belə xəstələrə vaxtında və düzgün yanaşılmalıdır. Bəzən belə xəstələri "tüksüz qız" da adlandırırlar. Çünki onlarda ikincili cinsi əlamətlər – yəni, qasıq və qoltuqaltı tüklənmə ya olmur, ya da tüklər həddən artıq zərif olur. Əgər qız uşaqlarında ikitərəfli qasıq yırtığı qeyd olunursa, mütləq əməliyyatdan öncə abdominal ultrasəs müayinəsi aparılmalıdır ki, qeyd olunan patologiyaların olub-olmadığı müəyyən edilsin.

**ATU-nun mətbuat xidməti**

# İDMANÇILARIMIZIN UĞURLARI

**Bu il martın 1-dən 3-dək Gəncə şəhərində cüdo üzrə XIV Universiada keçirilmişdir. Onu da qeyd edək ki, bu il Gəncə şəhəri Olimpiya şəhəri elan edilmişdir.**

İdmanın 10 növü üzrə keçirilən Universiada yarışlarında ATU-nun cüdo üzrə yığma komandası I yerə layıq görülüb. Məşqçi Ələkbər Əliavsarovun yetirmələri olan Mirsadıq Əsgərov (60 kq), Mansur Fərruxov (73 kq), Rauf Mənsimov (90 kq), Aqil Həsənzadə (+100 kq) I, Oruc Xəlilov (100 kq) II, Baraəli Məmmədov (90 kq) isə III yeri tutaraq fərqləniblər.



Martın 6-da universitetimizin dama üzrə yığma komandası XIV Universiadanın xüsusilə fərqlənmişlər.

Məlum olduğu kimi, 5 mart Ümumdünya Bədən Tərbiyəsi günüdür. Bu gün münasibətilə Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunmuş kişilər arasında voleybol və futzal üzrə yarışlar keçirilmişdir. Bu yarışlarda da ATU-nun yığma komandaları I yeri qazanmışlar.



yarışlarında ümumi komanda hesabında I yeri qazanıb.

Bu yarışlarda məşqçi, professor Kamal Kəbərlinskinin yetirmələri - II MPF-nin I kurs tələbəsi Səbinə Şabanova, əczacılıq fakültəsinin III kurs tələbəsi Afaq Həsənova, I MPF-nin II kurs tələbəsi Toğrul Abdullayev, II MPF-nin V kurs tələbəsi Nəsir Həsənov və Stomatologiya fakültəsinin III kurs tələbəsi Rahib Qarayev

Bu qələbənin qazanılmasında məşqçilərdən voleybol üzrə Cəlaləddin Babayev, futzal üzrə isə Şükür Bayramovun əməyini yüksək qiymətləndirmək olar.

Xüsusi qeyd etmək lazımdır ki, universitetimizin rektoru, professor Gəray Gəraybəylinin göstərdiyi diqqət və qayğı sayəsində idmançı tələbələrimiz ali təhsil müəssisələri arasında keçirilən idman yarışlarında bu yüksək nəticəyə nail oldular. Komandalarımızın yarışlarda fəal iştirakı üçün universitet rəhbərliyinin yaxından köməyini həmişə hiss etmişik.

Bu qələbələr münasibətilə bədən tərbiyəsi və idman kafedrasının bütün əməkdaşlarını təbrik edir və onlara növbəti qələbələr arzulayırıq.

**Sevinc İSAYEVA**

# 26 mart Epilepsiya Xəstələri Günüdür

**◆ Epilepsiya qədim tarixə malik və indiyə qədər tam müalicəsi tapılmayan xəstəliklərdən biridir. Onun yeganə və əsas əlaməti təkrarlanan epileptik tutmalardır. Xəstəlik zamanı beyin qabığının müəyyən sahəsində- epileptogen ocaqda neyronlar sinxron şəkildə oyanır.**

AZƏRTAC xəbər verir ki, 2008-ci ildə epilepsiyadan əzab çəkən doqquz yaşlı qız Kessidi Meqan özünün başqalarından heç də fərqlənmədiyini göstərməyə qərar verib. O, xəstəliyin ətrafdakılar tərəfindən dəliliyin yüngül forması kimi qəbul edildiyini hiss etmişdi. Kessidi xəstəlik barədə yayılan mifləri dağıtmaq üçün "Bənövşəyi gün" yaratmağa nail olub. Onun başladığı təşəbbüsü əvvəlcə Kanadadakı Yeni Şotlandiya Epilepsiya Assosiasiyası dəstəkləyib, onun ardınca dünyanın başqa təşkilatları da ona tərəfdar çıxıblar.

Bundan bir il sonra 100 min tələbə, 100-ə yaxın ictimai birlik və 100-dən artıq məşhur siyasətçi həmin təşəbbüsə qoşulub. Bir axşam Torontodakı televiziya qülləsi bənövşəyi rəngə bürünüb.

Həmin vaxtdan martın 26-da dünyanın müxtəlif ölkələrində xəstəlik və ona göstərilən ilk yardım haqqında informasiyalar yayılır. Bundan başqa, keçirilən hərrac, yarmarka, konsert və idman yarışları vasitəsilə xəstələr üçün vəsait yığılır.

Həmin gün bütün dünyada "Bənövşəyi gün" keçirilir. Hər il




keçirilən bu beynəlxalq tədbir epilepsiya haqqında məlumatlılığı artırmağa xidmət edir. Həmin gün arzu edənlər epilepsiya diaqnozu ilə yaşayanlara mənəvi dəstək göstərə bilərlər.

Xroniki nevroloji xəstəlik olan epilepsiyaya mübtəla olanlar qəflətən baş verən qıcolmalarla üzləşirlər. Vaxtilə həmin xəstəlikdən Yuli Sezar, Dante Aligeri, Napoleon Bonapart, Makedoniyalı İsgəndər, Alfred Nobel və başqa məşhurlar da əziyyət çəkiblər.

# "Fərqli Fərdlər" konqresinə qeydiyyat başlanıb

**Aprelin 6-da Heydər Əliyev Mərkəzində fərqli inkişaf özəllikləri olan uşaqlara həsr olunan 1-ci "Fərqli Fərdlər" konqresi keçiriləcək.**

Fərqli inkişaf özəllikləri olan uşaqlara həsr edilən 1-ci "Fərqli Fərdlər" konqresi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Azərbaycan Respublikasının Ailə və Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçiriləcək.

Konqresinin baş tərəfdaşı qismində BP çıxış edir. Tədbir Shokki Mokki brendi, həmçinin "Halliburton", "ACE Group Consultants", "Art Trio", "Credo" və "CTS Translation" şirkətləri tərəfindən dəstəklənir. Təşkilati dəstək "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən göstərilir. Konqresin təşkilatçıları qismində Famtram.az ailə portalı, Edutainment.az təhsil strukturu və peşəkar tədbirlərin aparıcı təşkilatçısı - "CEO" şirkəti (ceo.az) çıxış edir.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, konqresin məqsədi ictimaiyyətin diqqətini fərqli özəllikləri olan uşaqların inkişafına və təlim-tərbiyəsinə yönəldərək valideynlər, mütəxəssislər və pedaqoqlar arasında dialoq qurmaq və inklüziv cəmiyyətin dövlət tərəfindən müəyyənləşdirilmiş inkişaf təmayülünü dəstəkləməkdir.

Tədbirdə aşağıdakı mövzuları ehtiva edən 4 panel təqdim olunacaq: autizm spektr pozuntusu; diqqət çatışmazlığı və hiperaktivlik sindromu; Turet sindromu; Daun sindromu.

Valideynlərin emosional tükənməsi və bunu aradan qaldırma üsulları mövzusunda konqres çərçivəsində ayrı panel həsr olunacaq.

Konqresin məruzəçiləri arasında tanınmış beynəlxalq və yerli mütəxəssislər, fərqli inkişaf xüsusiyyətləri olan uşaqların valideynləri, eləcə də öz həyat və nailiyyət tarixçələri barədə danışmaq istəyən insanlar yer alır. Konqresdə, həmçinin dövlət strukturları, müəllimlər, həkimlər və fərqli inkişaf özəllikləri olan insanlar ilə iş üzrə mütəxəssislər iştirak edəcəklər.

Hazırda tədbirdə çıxış edəcək iştirakçılar arasında klinik psixoterapevt Natalya Yaroşenko (İsveç), Beynəlxalq Disleksiya Mərkəzinin rəhbəri psixoloq Lora Zakon (İsrail), "Downside Up" Fondunun Təhsil mərkəzinin direktoru Yelena Pole (Rusiya), Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin müdiri

Fərqli Fərdlər
CONGRESS FOR KIDS WITH SPECIAL NEEDS

Natella Həsənova (Azərbaycan), İkram Rüstəmov, psixiatr, ATU (Azərbaycan) var. Həmçinin konqresdə Autizm Spektr Pozuntusu olan Şəxslərə Dəstək Mərkəzinin (Rusiya) rəhbəri Antonina Steynberq özü haqqında danışacaq, özünü dəstəkləmək/təşviq etmək bacarığı və autizm spektr pozuntusu olan fərdlərin sosiallaşması mövzusunda çıxış edəcək.

İnkişaf özəllikləri olan uşaqların öz normotipik həmyaşıdları ilə təhsil alması həyati əhəmiyyət kəsb edir və sevindirici haldır ki, Azərbaycanda belə uşaqlar dövlət qayğısı ilə əhatə olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi ölkədə inklüziv cəmiyyətin inkişaf etdirilməsi baxımından yeni imkanlar yaradıb.

Ənənəvi olaraq aprel ayı bütünlüklə autizm barədə məlumatlandırma işlərinə həsr olunur - çoxsaylı aksiyalar sayəsində bütün dünyada insanlar bu inkişaf pozuntusuna diqqət yetirərək daha çox məlumat əldə edirlər. Həmçinin bu aksiyanı dəstəkləyən xeyriyyə və kommersiya təşkilatlarının sayı da ildən-ilə dəfələrlə artır ki, bu da sözügedən aksiyalara, ən əsası isə onların səmərəliliyinə olan yüksək tələbatı əks etdirir.

Konqresdə iştirak etmək üçün linki (https://ferqliferdler.az/az-home.html) istifadə edərək qeydiyyatdan keçib elektron biletini əldə edə bilərsiniz. Bununla yanaşı, arzu edən hər kəs (könüllülük əsasında) tədbiri dəstəkləyə bilər. Bütün maraqlanan şəxs və şirkətlər tərəfdaşlığa dəvət edilir (congress@ceo.az; info@famtram.az).

# Xoş gəldin, Novruzum!

Yaz yağışı zirvələrə ələnir,
Dağ– dərələr çən– dumana bələnir.
Aşıqların döşündə saz dillənir,
Deyir: bahar ömrümüzə nur bəzə,
Xoş gəldin Novruzum, xoş gəldin bizə.

Yolunu gözləyir şən ellərimiz,
Məzarda uyuyan şəhidlərimiz.
Qədəm qoy azalsın ələmlərimiz,
Həmdəm ol, məlhəm et kədərimizə,
Xoş gəldin Novruzum, xoş gəldin bizə.

Müjdən olsun xəfif əsən küləklər,
Xonça tutsun, şam yandırsın mələklər.
Niyyət etsin, kama yetsin diləklər,
Sevinc, fərəh bağışla qəlbimizə,
Xoş gəldin Novruzum, xoş gəldin bizə.

Qapı pusaq, kömək olsun Yaradan,
Süfrə açaq noğul, şəkərburadan.
Pay götürüb Qarabağdan, Şərurdan
Adın anıb, qonaq gedək Təbrizə,
Xoş gəldin Novruzum, xoş gəldin bizə.

Bu bir ildə küsən varsa barışsın,
Tonqal çatıb dövrəsində yarışsın.
Zurna– qaval bir– birinə qarışsın,
Qol qaldırıb kosa versin şux məzə,
Xoş gəldin Novruzum, xoş gəldin bizə.

MƏNSUR

# Tikanı var, ətri var...

(Tikanlıdır qızılgülün qönçəsi – müəllif)

Bizim elli gözəllər,
Durna telli gözəllər,
Əziz Novruz günündə,
Yurdun toy–düyünündə,
Durun ayna önündə.
Gözəlliklə gülləşin,
Daha da gözəlləşin.
Ömür şimşək çaxması,
Gün yaxıb, ay doğması.
İlk baharın mehi tək,
Dan yerinin şehi tək
Gülsünüz, çiçəksiniz.
Çiçəkdən qəşəngsiniz,
Siz sevən ürəksiniz,
Saf eşqi zirəksiniz.
Halallıq yox haramda,
Olun səbri aramda...
Deyin, gülün, şənlənin.
Taleyi ağ günlənin,
Sevər qönçə, qərənfil,
Şair–həkim Fəzail,
Saflıq qaynar təbində,
Saf gözəlin qəlbində
Hörməti var, xətri var,
Tikanı var, ətri var.
Ağ at çıxsın uğruma,
Novruz gəlsin yurduma!!!

Fəzail İsmayıl Böyükkişi




## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin I kurs, 118a-8b qrup tələbəsi İsaeva Tamara Mahammad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dalivalova İra Pərviz qızına 2011-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən travmotoloq-ortoped ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quliyev Zaur Həmid oğluna 2006-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qafarov Əşrəf Məhəmməd oğluna 1986-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən ümumi cərrahiyyə ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Farmakologiya kafedrasının əməkdaşları kafedranın assistenti Elnurə Musayevaya qardaşı

**Eşqin Musayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyena kafedrasının əməkdaşları kafedranın məsləhətçi professoru Maqsud Qasımova bacısı oğlu

**Nurəddin Rəsulovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyena kafedrasının əməkdaşları kafedranın assistenti İlhamə Ramazanovaya anası

**Cəmilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200